# Sosial-iqtisadi inkişaf dinamik və yüksək templidir

**Azərbaycan dünyanın o ölkələrindəndir ki, siyasi və iqtisadi sahələrdə müstəqil xəttə malikdir. Suverenliyinin bərpasının cəmi 24 yaşı olmasına baxmayaraq, bu qısa zaman kəsiyində böyük iqtisadi sıçrayışlara, sosial uğurlara, beynəlxalq arenada yüksək siyasi nüfuza sahib olmuşdur. Həqiqi siyasi müstəqilliyin və sosial rifahın təməlində, təbii ki, iqtisadiyyatın qüdrəti dayanır.**

Ölkəmiz yerləşdiyi regionun qüdrətli dövləti və söz sahibidir. Bu nailiyyət ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun bəhrəsidir. Hazırda Azərbaycan dövləti öz Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ümummilli liderin siyasi xəttinə sadiqliyi sayəsində hər il yeni, daha yüksək mərhələyə qədəm qoyur. Dövlət başçısı Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində davamlı dinamik inkişaf barədə demişdir: "Azərbaycan uğurla inkişaf edir. İnkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır. Ona görə ki, bu gün biz dünyanın müxtəlif yerlərində çox xoşagəlməz prosesləri müşahidə edirik. Yaxın Şərqdə vəziyyət həddindən artıq çox gərginləşib. Qanlı toqquşmalar dayanmır, qan tökülür və yeni müharibə ocaqları yaranır. Avropa dərin iqtisadi böhran içindədir və bu böhrandan, hələ ki, çıxış yollarını tapa bilməyib". Göründüyü kimi, dünyadakı iqtisadi, sosial, siyasi gərginlik və kataklizmlərə rəğmən ölkəmizdə sosial-iqtisadi inkişafın dinamizmi qorunur. Nəticədə tərəqqi ilbəil daha yüksək mərhələ ilə başa çatır.

2015-ci ilin yeddi ayında da göstəricilər ürəkaçandır, yanvar-iyul aylarında 32,1 milyard manatlıq və ya ötən ilin müvafiq dövrünə nisbətən 5,6 faiz çox ümumi daxili məhsul istehsal olunub. Əlavə dəyərin 35 faizi sənayedə, 12,5 faizi ticarət, turistlərin yerləşdirilməsi və ictimai-iaşə xidmətləri sahələrində, 13,6 faizi tikinti kompleksində, 5,7 faizi nəqliyyatda, 6 faizi kənd təsərrüfatında, 1,9 faizi rabitədə, 17,2 faizi digər sahələrdə yaradılmışdır.

Göstəricilər sübut edir ki, dövlətin qarşıya qoyduğu hədəflərə müvəffəqiyyətlə çatılır. Qeyri-neft sektorunun inkişafı prioritetdir və çoxşaxəliliyin təmini sayəsində neft və qaz sektorundan asılılığın, demək olar ki, aradan qaldırılması nəzərdə tutulur. Çünki beynəlxalq bazarlarda neftin və qazın qiymətlərinin qeyri-stabilliyi ölkə iqtisadiyyatına çox güclü təsir edən amildir. Azərbaycan bu sahədə həm hasilatçı, həm də istehsalçı olduğuna görə iqtisadiyyatın şaxəliliyinə nail olduqda neftdən asılılıq aradan qalxır və real iqtisadiyyatın gəlirliyi, rəqabətqabiliyyətliliyi sabitliyi, dayanıqlığı və tərəqqini təmin edir. Ölkə rəhbərliyi bu hədəfə doğru uğurla gedir. 2014-cü ilin 7 ayı ilə müqayisədə qeyri-neft



sektorunda 9,0 faiz, neft-qaz sektorunda isə 1 faiz artıma nail olunmuşdur.

Qüdrətli sənayeyə sahib olmaq dövlətin gücünün əsaslarındandır, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən yeddi ayda 15,8 milyard manatlıq məhsul istehsal edilmişdir. Bu rəqəm ötən ilin eyni dövründəki göstəricilərdən 3,5 faiz çoxdur. Diqqətəlayiq məqam odur ki, sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 14,7 faiz, neft-qaz sektorunda isə 0,1 faiz artmışdır. İstehsal olunmuş məhsulların 99,8 faizi istehsalçılara göndərilmişdir. Ümumi sənaye istehsalının 88,1 faizi malların, 11,9 faizi isə sənaye xarakterli xidmətlərin payına düşmüşdür. İstehsalda özəl bölmənin payı 76,7 faizdir. Ölkənin bütün həyatını əhatə edən mütərəqqi islahatlar daim təkmilləşdirilir, iqtisadiyyatın innovativ inkişafına mane olacaq bütün manelər operativ aradan qaldırılır, sosial rifahın davamlı yüksəlişini təmin etmək üçün təsirli addımlar atılır. Ölkədə dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu, qanunlar mütəmadi olaraq təkmilləşdirilir.

Ulu öndərin ən böyük arzusu hərtərəfli inkişaf etmiş, müstəqil, demokratik, dünyanın qüdrətli, söz sahibi olan Azərbaycanı qurmaq idi. Ümummilli liderin başladığı işi onun layiqli siyasi varisi cənab İlham Əliyev çox böyük səriştə və bacarıqla reallaşdırır.

Hazırda dövlət siyasəti qlobal proseslərin çağırışlarına layiqincə cavab verir və inkişafın dinamizmi yüksək templidir. Azərbaycanda davamlı inkişafa nail olmaq üçün milli iqtisadiyyatın makro və mikro bölmələri arasında qarşılıqlı əlaqə yaradılıb. İqtisadiyyatda inkişafın vəhdətliliyinin təmini sayəsində davamlı, sabit, sürətli və yüksək templi inkişafa nail olunub. Azərbaycan rəhbərliyinin düşünülmüş, ölçülüb-biçilmiş siyasəti davamlı inkişafı təmin edib. Bu fəaliyyətin pozitiv göstəriciləri sübut edir ki, Azərbaycan qarşıya qoyduğu hədəflərə çatacaqdır. Dövlət başçısı qazanılan uğurların səbəbi barədə deyib: "Bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var - regionların inkişafı, işsizliyin aradan qaldırılması, sənayeləşmə, kənd təsərrüfatının inkişafı".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**